# Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində




*«Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir».*

*Heydər Əliyev*

Dağlıq Qarabağ problemi Azərbaycan xalqı üçün umummıllı məsələ olaraq qalmaqdadır. Bununla əlaqədar yazılmış kitablar, toplular xüsusi diqqət tələb edir. Hüquq elmləri doktoru akademik Elşad Abdullayevin müəllifi olduğu "Təhsil" nəşriyyatında çap olunmuş "Dağlıq Qarabağ problemi hüquq müstəvisində" adlı kitabı təqdirəlayiq bir vəsaitdir. 216 səhifə həcmində olan bu kitabın redaktorları hüquq elmləri doktorları Lətif Hüseynov və Alış Qasımovdur. 500 tirajla nəşr olunan kitabın nəşriyyat redaktoru Təranə Tofiq qızı, bədii və texniki redaktoru Abdulla Ələkbərov, kompüterçi-dizaynerlər Səbinə Məmmədova, Aqil Əmrahov, korrektoru Sevinc Hacıyevadır.

Bu vəsait xalqımızın ümummilli probleminə çevrilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, məsələnin həlli ilə bağlı danışıqlar prosesinin gedişini, beynəlxalq birliyin bu məsələdə tutduğu mövqeyin nə dərəcədə ədalətli olduğunu araşdırır. Müəllifin əsas məqsədi bu gün bütün Cənubi Qafqazda təhlükəsizliyə və sabitliyə mane olan çox mürəkkəb bir məsələnin həqiqi mahiyyətini oxuculara çatdırmaq və dünya birliyinin problemə münasibətdə ədalət meyarlarına əsaslanmasının zəruriliyini sübut etməkdən ibarətdir. Kitab nəinki Azərbaycan, eləcə də bütün region xalqlarının həyatına mənfi təsir göstərən Dağlıq Qarabağ münaqişəsinin səbəblərini öyrənmək istəyənlər üçün qiymətli vəsaitdir.

Nəfis şəkildə hazırlanmış bu vəsait "Müəllifdən", "Ön söz", 4 bölmə, 19 yarım istifadə olunan ədəbiyyat və mənbələr sərlövhəsindən ibarətdir.

"Müəllif" adlı sərlövhədə akademik E.Abdullayev yazır ki, "Kitabda əksini tapmış faktlar real tarixi həqiqətləri özündə əks etdirir. Gələcəyi görmək üçün isə tarixi keçmişi öyrənmək çox vacibdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istənilən halda və istənilən variantda Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir, buna heç kim şübhə etmir. Sizə təqdim edilən kitabda göstərilən faktlar və məlumatlar gələcək haqqında nikbin düşünmək üçün ciddi əsaslar olduğunu sübuta yetirir. Amma bu hələ arxayınlaşmağa əsas vermir. Mübarizə davam edir və burada hamı - ictimai statusdan, vəzifəsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öndə olmalıdır".

"Ön söz"ün müəllifi L.Hüseynov və A.Qasımov qeyd edirlər ki, "Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabının üstün cəhətlərindən biri də bundan ibarətdir ki, münaqişə ilə bağlı beynəlxalq təşkilatların qəbul etdiyi müxtəlif qətnamələr, bəyanatlar, rəsmi məlumatlar, eyni zamanda ATƏT-in Minsk qrupunun üç təklifi burada toplanmışdır. Bu sənədlər beynəlxalq birliyin problemə münasibəti və münaqişənin özünün xarakteri barədə dolğun məlumat almaq imkanı yaradır. Şübhəsiz ki, qeyd etdiyimiz

vəziyyətlər kitabın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini öyrənmək və bu konfliktin Azərbaycanın, regionun, eləcə də dünyanın ictimai – siyasi düzənində hansı yer tutduğunu bilmək istəyənlər üçün qiymətli vəsait olduğunu deməyə əsas verir.

Kitabın 1 bölməsi "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi" adlanır və 3 - "Tarixi faktların izi ilə", "Dağlıq Qarabağ probleminə dair 23 fevral 2001- ci ildə Milli Məclisdə keçirilən müzakirələrdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi" və "Milli Məclisin 24 fevral tarixli iclasında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yekun nitqi" adlanır.

«Tarixi faktların izi ilə" yarım bölmədə deyilir: "1418-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Muğanda, Qubada, Lənkəranda ermənilər tərəfindən minlərlə azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan öz vətənlərindən didərgin salınmışdır. Bu dövrdə Bakıda və Şamaxıda ermənilərin həyata keçirdiyi kütləvi soyqırımı aktları daha dəhşətli olmuşdur. Bakıda 30 minə yaxın insan xüsusi qəddarlıq və amansızcasına məhv edilmişdir. Şamaxının 58 kəndi xarabazara çevrilmiş, 7 min nəfər insan öldürülmüşdür (onlardan 1653 nəfəri qadın, 965 nəfəri isə kişi olmuşdur), Quba qəzasında müsəlmanların yaşadığı 122 kənd yandırılmış və dağıdılmışdır. Qarabağın dağlıq ərazilərində yerləşən 150-dən çox kənd yerlə yeksan edilmişdir... Zəngəzur qəzasında da eyni üsulla 155 kəndi vəhşicəsinə darmadağın edən ermənilər İrəvan quberniyasında 211, Qarsda 92 kəndi talan edərək yandırmışlar". Son dövrün müşahidələri göstərir ki, Azərbaycan münaqişənin həlli ilə bağlı müəyyənləşdirdiyi prinsiplərə sadiq qalmaq əzmindədir və bunun tamamilə ciddi səbəbləri var. Birinci bölmənin 2-3 yarım başlıqlarındakı mərhum ulu öndərimiz H.Əliyevin çıxışları da diqqəti cəlb edir. "Çıxış edənlərdən xahiş edirəm, nə tarixdən, nə kim günahkardır, günahkar deyil, bu nədən başımıza gəldi-bunlardan danışmasınlar, bunlar qalsın kənarda, bu sonranın işidir. Bu gün nə etmək lazımdır? Bu işə hansı yolla nail olmaq lazımdır. İşğal olunmuş torpaqları azad etmək lazımdır. Heç olmasa Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş rayonları azad etmək lazımdır"... "Mən həyatımın, demək olar çox böyük hissəsini bu işə həsr etmişəm və bundan sonra da mənim üçün Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib heç bir vəzifə yoxdur. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni bundan sonra da şərəflə yerinə yetirməyə çalışacağam"

E.Abdullayevin "Dağlıq Qarabağ problemi hüquq müstəvisində" kitabının 2 bölməsi "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatı adlanır. 3 yarım başlıqdan ibarətdir. Bu başlıqlar: 1) "Qarabağ problemi beynəlxalq təşkilatların diqqət mərkəzində (o cümlədən, BMT. ATƏT, İslam Konfransı Təşkilatı, Avropa Birliyi) "Münaqişənin həllinə dair danışıqlar prosesi və ATƏT-in vasitəçilik missiyası", «Avropa şurası Ermənistanın Azərbaycan ərazilərini işğal faktını tanıyır" adlanır. Bu bölmənin ilk bəndi BMT-dir. Burada göstərilir ki, təcavüz aktının bu və ya digər formasına görə təcavüzkar dövlət BMT Təhlükəsizlik Şurası qarşısında birbaşa məsuliyyət daşıyır. Bu isə Təhlükəsizlik Şurasına təcavüzkar haqqında məcburi tədbirlərin görülməsi səlahiyyətlərini verir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət yürütdüyünü təsdiqləyən onlarla faktlar və bu faktlar sözügedən ölkənin respublikamıza qarşı həyata keçirdiyi hərbi əməliyyatların bütün kriteriyalar üzrə məhz təcavüzkar aktı olduğunu söyləməyə əsas verir. Lakin buna baxmayaraq, BMT Təhlükəsizlik Şurası təcavüzkarı cəzalandırmaq və onu öz qanunsuz hərəkətlərindən çəkindirmək üçün lazımi qərarlar qəbul etmək istəmədi.

Bu bölmənin 2-ci bəndi "ATƏT" adlanır. ATƏT beynəlxalq hüquqdan doğan 10 təhlükəsizlik prinsipi müəyyənləşdirmişdir ki, bunların da hamısı Ermənistan Azərbaycanın suverenliyinə qəsd edib (1- ci prinsip), ölkəmizə və xalqımıza qarşı silahlı qüvvələrdən istifadə edilib (2-ci prinsip), sərhədlərimizi pozub (3-cü prinsip), ərazi bütövlüyümüzü tanımadığını dəfələrlə beynəlxalq əhəmiyyətli tədbirlərdə nümayiş etdirib və təcavüzkar əməlləri ilə bunu bir daha təsdiqləyib (4-cü prinsip), mübahisələrin dinc yolla həlli (5-ci prinsip), Azərbaycanın daxili işlərinə qarışır (6-cı prinsip), bir milyona yaxın qaçqın və məcburi köçkünün hüquqlarını tapdalayıb (7-ci prinsip), millətlərin bərabərliyi və xalqların öz müqəddəratını təyin etmə hüququna hörmət (8-ci prinsip), dövlətlər arasında əməkdaşlığı pozur (9-cu prinsip), 5 hüquqa dair heç bir öhdəliyi yerinə yetirmir (10-cu prinsip).



İslam Konfransı Təşkilatı prinsipial mövqeyinə sadiq qalmış və Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını müxtəlif səviyyəli görüşlərdə, zirvə toplantılarında, xarici işlər nazirlərinin konfranslarında daim bəyan etmişdir. Azərbaycanın təklifi ilə İKT-nın qətnaməsinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair yeni müddəalar əlavə edilmişdir.

Avropa Beynəlxalq Birliyinin təcavüzkarı layiq olduğu formada cəzalandırmaq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün yalnız bir yol var ki, bu da beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə bu ölkənin də riayət etməsinə nail olmaqdır.

II bölmənin 2-ci yarım bölməsi "Münaqişənin Həllinə Dair Danışıqlar Prosesi və ATƏT-in vasitəçilik missiyası adlanır" və burada qeyd olunur ki, 5 münasibətlər sistemində də qüvvələr nisbəti məhz rəsmi Bakının xeyrinədir. Prezidentlərin görüşləri arasındakı vaxt ərzində xeyli yenilik baş verib və bu bir daha təsdiqləyir ki, prezident İlham Əliyevin "Biz tələsmirik" olduqca dəqiq proqnozlara əsaslanır. Azərbaycanın xeyrinə olan bu proses o qədər də ləng getmir, əksinə vəziyyət demək olar hər gün daha böyük sürətlə dəyişməkdədir.

II bölmənin 3-cü yarım bölməsi "Avropa Şurası Ermənistanın Azərbaycan ərazisini işğal etməsi faktını tanıyır" adlanır. Avropa Şurası ilə Azərbaycanın əlaqələri 1992-ci ildən başlamışdır. Hörmətli Prezidentimiz İlham Əliyevin AŞ nümayəndə heyətimizə rəhbərlik etdiyi dövrdə AŞPA-da Azərbaycan həqiqətlərini özündə ehtiva edən 30-a yaxın sənəd hazırlanmış və təşkilatın rəsmi sənədləri kimi yayılmışdır.

Kitabda diqqəti cəlb edən bölmələrdən biri də "Beynəlxalq Təşkilatların qəbul etdiyi sənədlər" bölməsidir. Buraya BMT-nin 822 saylı, 853 saylı, 874 saylı, 884 saylı qətnamələri, Təhlükəsizlik Şurasının 12 may 1992-ci il, 26 avqust 1992-ci il, 27 oktyabr 1992-ci il, 29 yanvar 1993-cü il, 6 aprel 1993-cü il, 18 avqust 1993-cü il, 26 aprel 1995-ci il bəyanatları daxildir.

ATƏT-in 5 dekabr 1994-cü il, 3 dekabr 1996-cı il, Avropa Birliyinin 3 sentyabr 1993-cü il, 27 aprel 1997-ci il, 25 aprel 2001-ci il qətnamələri, 26 aprel 2001-ci il bəyannaməsi, 26 iyun 2001-ci il müraciəti, 27 iyun 2001-ci il AŞ-nın, Nazirlər Kabinetinin 24 sentyabr 2001-ci il, 24 iyun 2002-ci il qərarları daxildir. İİKKT-nın 25-29 aprel 1993-cü il, 13-14 dekabr 1994-cü il, 3-9 dekabr 1996-cı il tarixli qətnamələri daxildir.

Kitabın maraqlı bölmələrindən biri 4-cü "ATƏT-in təklifləri" bölməsidir. Buraya ATƏT-MİNSK qrupunun 18 iyul 1997-ci il tarixli "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş", 27 dekabr 1997-ci il tarixli "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş", 7 noyabr 1998-ci il tarixli hərtərəfli "Dağlıq Qarabağ" silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında" sazişlər daxildir və bunların mahiyyəti hərtərəfli işıqlandırılır.

Kitabın sonunda istifadə olunan ədəbiyyatın siyahısı və 32 mənbə göstərilir.

E.Abdullayevin "Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabı Qarabağ probleminin hüquqi cəhətdən sülh yolu ilə nizama salınmasında atılmış ilk addımdır.

Bu kitabın maraqlı cəhətlərindən biri də vəsaitin dörd dildə - Azərbaycan, rus, ingilis və türk dillərində olmasıdır. Bu da Dağlıq Qarabağ probleminin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir.

**B. ƏLƏSGƏROV,**
***Beynəlxalq Nobel İnformasiya Mərkəzinin həqiqi üzvü***